AzJESS
Azerbaijanian Journal of Economics and Social Studies

Number 2, Volume 1, 2015

# MİLLİ STANDARTLAŞDIRMA SİSTEMİNİN QIDA TƏHLÜKƏSIZLİYİNİN TƏMİN EDILMƏSİNDƏ ROLU: MÖVCUD VƏZİYYƏT VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

***Elxan Əvəz oğlu Mikayılov***
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun doktorantı*

**Xülasə**

Hazırda ölkəmizdə milli standartlaşdırma sistemi qida təhlükəsizliyinin təmin edilməsində aktiv rola malikdir. Ancaq beynəlxalq təcrübədə milli standartlaşdırma sisteminin qida təhlükəsizliyində roluna fərqli yanaşılır. Odur ki, bu məqalədə milli standartlaşdırma sisteminin qida təhlükəsizliyi sistemində mövcud rolu və beynəlxalq təcrübə, eləcədə qida təhlükəsizliyi sistemi qiymətləndirilmiş və təkmilləşdirilməsi ilə bağlı təkliflər verilmişdir.

**Açar sözlər:** milli standartlaşdırma sistemi, qida təhlükəsizliyi, beynəlxalq təcrübə

***Giriş.***Məlum olduğu kimi ərzaq təminatında əsasən iki mühüm istiqamət movcudddur. Bunlardan biri ərzaq təhlükəsizliyi, ikincisi isə qida təhlükəsizliyidir. Ölkəmizin ərzaq ehtiyatların yetərincə formalaşdırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində son illər əhəmiyyətli işlər görülməkdədir. Belə ki, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatina dair Dövlət Proqramı" çərçivəsində kənd təsərrüfatının inkişafı və etibarlı ərzaq təminatı istiqamətində əhəmiyyətli işlər görülmüş və demək olar ki, ölkəninin ərzaq təhlükəsizliyi təmin edilmişdir. Ancaq, bu öz növbəsində ərzaq təminatı istiqamətində ikinci prioritet istiqamət olan yeyinti məhsullarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində də zəruri tədbirlərin görülməsini labüd etmişdir. Bura qida təhlükəsizliyinin təminatı sisteminin ÜTT-nin, Avropa Birliyinin və müvafiq beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılması və məhsulların təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsi daxildir. Qida təhlükəsizliyi sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması bu sahədə yeni yanaşmanın formalaşmasını və qanunverici və institutsional bazanın, eləcədə qida məhsulların dövlət nəzarətinin təkmilləşdirilməsini tələb edir. Digər tərəfdən milli standartlaşdırma sistemi də beynəlxalq tələblərə uyğunlaşdırılmaqdadır. Hazırda Azərbaycanın milli standartlaşdırma sistemi qida təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir. Ancaq beynəlxalq təcrübə fərqli mənzərəni ortaya qoyur. Odur ki, burada milli standartlaşdırma sisteminin qida təhlükəsizliyinin təminində oynadığı mövcud rolu və beynəlxalq təcrübənin tələb etdiyi rolu təhlil edək və beynəlxalq tələblərə uyğun olaraq mövcud sistemdə aparılmalı olan islahatları təsvir edək.

**Azərbaycanın mövcud milli standartlaşdırma sistemi və onun qida təhlükəsizliyində rolu**

Məlum olduğu kimi standartlaşdırma dedikdə məhsullara və xidmətlərə dair mövcud və potensial problemləri həll etmək üçün göstəricilərin optimal səviyyəsinin əldə edilməsinə yönəlmiş, ümumi və təkrar istifadə üçün nəzərdə tutulan tələblərin müəyyən edilməsi məqsədilə standartların hazırlanması, qəbulu və tətbiqi prosesindən ibarət fəaliyyət nəzərdə tutulur [1, s. 4]. Milli standartlaşdırma sistemi isə məhsulların və xidmətlərin təhlükəsizliyinin və rəqabət qabiliyyətliyin təmin edilməsinə yönəlmiş standartlaşdırma, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi (sertifikatlaşdırma, akkreditləşdirmə, inspeksiya və s.) və məhsulların tələblərə uyğunluğuna nəzarət fəaliyyətlərin özündə birləşdirən bir sistemdir. Göründüyü kimi bu sistemin əsasın məhsullara, xidmətlərə və istənilən fəaliyyətə və onun nəticələrinə dair standartların hazırlanması və qəbulu, onların tətbiqinin təmin edilməsi və məhsulların standartların tələblərinə uyğunluğuna istehsalda və bazarda dövlət nəzarəti təşkil edir.

Hazırda ölkəmizdə keçmiş sovet dövlətlərin əhatə edən və **Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura** kimi fəaliyyət göstərən qurum tərəfindən hazırlana QOST standartları qüvvədədir. Həmin QOST standartları konkret məhsullara dair həm təhlükəsizlik, həm də keyfiyyət tələbləri müəyyənləşdirir. Yeyinti məhsullarına isə bunlarla yanaşı sanitar norma və qaydalar da müəyyənləşdirilir. Ancaq, bununla yanaşı beynəlxalq və regional standartlar əsasında milli standartlar da işlənib hazırlanır. Milli standartlar isə məhsullara və xidmətlərə dair məcburi və tövsiyyə xarakterli tələblər müəyyənləşdirir. Milli standartlar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (SMPDK) tərəfindən hazırlanır. Sanitariya norma və qaydaları isə Səhiyyə və Kənd təsərrüfatı nazirlikləri tərəfindən tərtib edilir. Ancaq SMPDK həmin norma və qaydaları dövlət qeydiyyatına almalıdır. Deməli, hazırda milli standartlaşdırma sistemi yeyinti məhsulları üçün normativ sənədlərin hazırlanmasında birbaşa iştirak edir.

Yeyinti məhsulları bir çox qurum tərəfindən sertifikatlaşdırılır. Belə ki, heyvan mənşəli yeyinti məhsullarına baytarlıq, bitki mənşəli məhsullara fitosanitar sertifikat, bütün yeyinti məhsullarına isə gigiyenik və uyğunluq sertifikatları verilir. Uyğunluq sertifikatı isə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən verilir və məhsulların həm baytarlıq (heyvan mənşəli olduqda), həm fitosanitariya (bitki mənşəli olduqda), həm gigiyenik, həm də standartların tələblərinə uyğun olduğun təsdiq edir. Deməli, hazırda milli standartlaşdırma sistemi yeyinti məhsullarının sertifikatlaşdırılmasında da iştirak edir.

Sertifikatlaşdırılmış məhsulların istehsalının standartların tələblərinə uyğunluğuna nəzarəti hazırda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, bazarda məhsulların standartların tələblərinə uyğunluğuna nəzarəti isə İqtisadiyyat və Sənaye Nazirliyi həyata keçirir [6, 7]. Ümumiyyətlə qeyd edək ki, milli standartlaşdırma sisteminin ən mühüm tərkib elementlərindən biri istehsalata və bazara dövlət nəzarətinin aparılmasıdır. Çünki, məhz bu mərhələ vasitəsilə məhsulların təhlükəsizliyi və istehlakçıların hüquqlarının müdafiəsi təmin edilir. Adı çəkilən iki qurum standartların tələblərinə riayət olunmasına nəzarət edən aparıcı

dövlət orqanlarıdır. SMPDK-nin tərkibində yaradılmış Standartlaşdırma və Texniki Tənzimləmə üzrə Dövlət Nəzarəti Xidməti istehsalatda demək olarki bütün məhsulların müvafiq normativ tələblərə uyğunluğuna nəzarəti həyata keçirir. Yeyinti məhsullarına eyni zamanda öz səlahiyyətləri daxilində Səhiyyə və Kənd Təsərrüfatı nazirlikəri də nəzarət edir. Göründüyü kimi yeyinti məhsullarının istehsalına nəzarət də milli standartlaşdırma sisteminin tərkib hissəsidir. Ümumiyyətlə yeyinti məhsullarına aşağıdakı Cədvəldə göstərilən qurumlar öz səlahiyyətləri daxilində nəzarət edirlər

***Cədvəl 1***

**Yeyinti məhsullarına nəzarət edən orqan və səlahiyyətləri**

| Qurum | Əsas fəaliyyətlər |
|---|---|
| İqtisadiyyat və Sənaye Nazirliyi, Anti-inhisar siyasəti və İstehlakçıların hüquqlarının Müdafiəsi Xidməti, İstehlak Mallarının Ekspertizası Mərkəzi | Qida məhsullarının laboratoriya sınağı (Mərkəzi Qida Sınağı Laboratoriyası)<br>Topdan və pərakəndə satış məntələqlərindən qida məhsullarının təhlükəsizliyinə və keyfiyyətinə, saxlanmasına, yararlılığına, etibarlılıq müddətinə nəzarət<br>AB-yə ixrac olunan qida məhsullara keyfiyyət ssertifikatının verilməsi |
| Səhiyyə Nazirliyi | İctimai səhiyyə yoxlamaları və qidaların laboratoriya sınağı (Respublika Gigiyena və Epidemiologiya Mərkəzi) |
| Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti | Ət yoxlamaları<br>Heyvan mənşəli yeyinti məhsullarının təhlükəsizliyi<br>Qida məhsulları üzrə laboratoriya sınağı (Baytarlıq İnstitutu) |
| Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Fitosanitar Nəzarət Xidməti | Pestisidlərin təsdiqlənməsi (aktiv birləşmələr, formullar)<br>Pestisid qalığının monitorinqi<br>Bitki mənşəli yeyinti məhsullarının laboratoriya sınağı (aflatoksinin monitorinqi) |
| Kənd təsərrüfatı Nazirliyi, Qida təhlükəsizliyi, Standartlaşdırma və Lisenziya Şöbəsi | Əsas kənd təsərrüfatı məhsullarının sortlaşdırılması |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | Standartların müəyyən olunması və tətbiqinə nəzarət (məcburi)<br>Yeyinti məhsullarının laboratoriya sınağı (AZTEST)<br>Kodeks əlaqə nöqtəsi |
| Dövlət Gömrük Komitəsi | İdxal və İxrac sertifikatlaşdırması<br>Sərhəd Yoxlama Postları<br>Yeyinti məhsullarının Laboratoriya sınağı |

Mənbə: Avropa Birliyinin Azərbaycanda Qida Təhlükəsizliyi sahəsində islahatlara dair Hesabat və Tövsiyyələr

Göründüyü kimi yeyinti məhsullarına istehsal səviyyəsində bir çox dövlət orqanı nəzarət edir. Bitki və bitki məhsullarına Dövlət Fitosanitar Nəzarəti Xidmət, diri heyvanlara və heyvan məhsullarına Dövlət Baytarlıq Xidməti nəzarət edir. Bundan sonra istehsala girən xammala və istehsal prosesinə Səhiyyə Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi nəzarət edir. Məhsul bazara daxil olanda sonra ona nəzarəti isə əsasən İqtisadiyyat və Sənaye Nazirliyi yanından Anti-inhisar siyasəti və istehlakçıların hüquqlarının qorunması üzrə Dövlət xidməti nəzarət edir. Bununla yanaşı Səhiyyə Nazirliyi də yeyinti məhsullarına bazarda nəzarət edir. Göründüyü kimi burada bir çox təkrarlanmalar mövcudddur. Hər bir orqanın özünə məxsus labaratoriyaları mövcudddur. Azərbaycanda yeyinti məhsullarının sınağı fəaliyyətinə 8 dövlət qurumu cəlb olunmuşdur. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən milli standartlar üzrə akreditə olunmuş 67 sınaq laborotoriyası (yeyinti məhsulları üzrə) mövcuddur (9). Bu rəqəmə özəl baytarlıq laboratoriyaları daxil deyildir. Lakin, heç də bu laboratoriyaların hamısı qida təhlükəsizliyinə rəsmi nəzarət məqsədilə sınaq fəaliyyəti göstərmirlər.

Azərbaycanda mövcud olan 67 laboratoriyadan yalnız ikisi ISO17025 üzrə akreditə olunmuşdur. Bu, İstehlak Mallarının Ekspertizası Mərkəzinin (İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində) və AZTEST-nin laboratoriasıdır (Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında) (2).

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, Azərbaycanda milli standartlaşdırma sistemi qida təhlükəsizliyinin təmin edilməsində, o cümlədən qida məhsullarına dair normaların hazırlanması, qida məhsullarının sertifikatlaşdırılması və istehsalatda və bazarda məhsulların standartların tələblərinə riayət edilməsində aktiv rola malikdir. Ancaq sual yaranır ki, bu nə dərəcəd beynəlxalq təcrübə ilə uzlaşır və nə dərəcədə effektivdir. Bu haqda irəlidəki bölmədə məlumat verək.

**Beynəlxalq təcrübə**

Beynəlxalq təcrübəyə nəzər saldıqda inzibati amirlik sisteminə dayanan və Azərbaycanda mövcud olan standartlaşdırma sisteminin qida təhlükəsizliyində tamamilə fərqli rolunun olduğu məlum olur. Bazar iqtisadiyyatı ölkələrində məhsulun təhlükəsizliyi dövlət tənzimləməsinin, məhsulun keyfiyyətin isə bazar tənzimləməsinin predmetidir. Dövlət yalnız bazarı təhlükəli mallardan qoruyur, bazar isə istehlakçının alıcılıq qabiliyyətinə uyğun aşağı və yuxarı keyfiyyətli malları təklif edir. İstehlakçıların alıcılıq qabiliyyəti yüksəldikcə bazardan aşağı keyfiyyətli məhsullar da çıxarılır. Ancaq buna qədər istehlakçı seçim hüququndan məhrum edilmir. Yeyinti məhsullarına münasibətdə isə məhsullara nəzarət səhiyyə və kənd təsərrüfatı nazirlikləri tərəfindən məhsulların daşıdığı risk səviyyəsinə (aşağı, orta və yüksək riskli) uyğun olaraq aparılır. Ərzaq istehlakının insan orqanizminə təsiri tibbi məsələ olduğundan qida təhükəsizliyi səhiyyə orqanı tərəfindən təmin edilir və milli standartlaşdırma sistemi bu prosesdə bizdəkindən fərqli olaraq aktiv rola malik deyil.

Qida təhlükəsizliyi üzrə beynəlxalq tələblər əsasən Ümumdünya Ticarət Təşkilatının Sanitariya və Fitosanitariya Sazişində öz əksin tapır. Odur ki, bu Saziş haqqında qısa məlumat verək.

ÜTT-nin Sanitariya və Fitosanitariya (SPS) Tədbirlərin Tətbiqi haqqında Sazişi (SPS) insan, heyvan və bitki sağlamlığının zərərli xəstəliklərdən və yoluxmalardan qorumaq üçün tətbiq olunan tədbirləri müəyyənləşdirir. Belə ki, Saziş qəbul edir ki, ÜTT-nin üzv dövlətləri insan, bitki və heyvan həyatını zərərli xəstəliklərdən qorumaq üçün sanitariya və fitosanitariya tədbirləri tətbiq etməlidir. Lakin, bu tədbirlərin tətbiqi Sazişin müəyyənləşdirdiyi qaydalar çərçivəsində olmaqla beynəlxalq ticarətə lazımsız maneələr yaratmamalı və diskriminasiya xarakterli olmamalıdır. Saziş çərçivəsində SPS tədbirlərinin tətbiqi dedikdə aşağıdakılar nəzərdə tutulur:

(a) üzv dövlətin ərazisində zərərli orqanizmlərin, pestisidlərin, xəstəlik daşıyıcı və ya xəstəlik törədici orqanizmlərin ölkəyə gətirilməsi, realizə edilməsi və ya yayılması nəticəsində ortaya çıxan risklərdən heyvan və ya bitki həyatı və ya sağlamlığını qorumaq;

(b) üzv dövlətin ərazisində qidalarda, içkilərdə və ya heyvan yemlərində yem əlavələri, çirkləndiricilər, zəhərli maddələr və ya xəstəlik törədici orqanizmlərdən yaranan risklərdən insan və ya heyvan sağlamlığını və ya həyatını qorumaq;

(c) üzv dövlətin ərazisində heyvanlar, bitkilər və ya məhsullardan keçən xəstəliklər və ya zərərli orqanizmlərin ölkəyə gətirilməsi, realizə edilməsi və ya yayılmasından yaranan xəstəliklərdən insan həyatı və ya sağlamlığını qorumaq

(d) üzv dövlətin ərazisində zərərli orqanizmlərin ölkəyə gətirilməsi, baş verməsi və ya yayılmasından yaranan digər zərərin qarşısının alınması və ya məhdudlaşdırılması.

Yuxarıda qeyd etdiyimiz kimi bu tədbirlərinin məqsədi insan, bitki və heyvanların sağlamlığı və həyatını qorumaqdır və daha konkret olaraq aşağıdakıları əhatə edir:

- insan sağlamlığı: qida qəbulundan, heyvan xəstəlikləri və ya zərərli orqanizmlərdən yaranan təhlükə;
- heyvan sağlamlığı: qida qəbulu və ya heyvan xəstəliklərindən yaranan təhlükə (zərərli orqanizmlər daxil olmaqla bütün məzmunlu və mənbələr)
- bitki sağlamlığı: zərərli orqanizmlərdən yaranan təhlükə (xəstəliklər daxil olmaqla bütün mənbələr)
- ətraf mühitə zərər: zərərli orqanizmlərin ölkəyə gətirilməsi, baş verməsi və ya yayılmasından yaranan təhlükə.

SPS tədbirlərinin obyekti olan mallar üçün konkret SPS tələblərini təsdiq edən sanitariya, baytarlıq və ya fitosanitariya sertifikatı tələb oluna bilər. Sertifikatlar yalnız məhsulların təhlükəsizliyini təsdiq edir və digər məqsədlər üçün istifadə olunmaya bilər. ÜTT-nin milli standartlaşdırma sistemi və məhsulların təhlükəsizliyi ilə əlaqəli digər bir sazişi Ticarətdə Texniki Maneələr haqqında Sazişdir. Ancaq bu sazişin predmeti SPS Sazişinin predmetindən fərqlidir. Bu fərqin nədən ibarət olduğun aydınlaşdıraq. Qısa ifadə ilə desək SPS Sazişi ərzaq

məhsullarının istehlakı zamanı onun insan orqanizminə bioloji və fiziki təsirlərin əhatə etdiyi halda TBT Sazişi digər məsələlərin və ümumilkdə təhlükəsizlik məsələlərin əhatə edir. SPS tədbirlərinin məqsədi insan, bitki və heyvanların sağlamlığı və həyatını qorumaqdır. Hər hansı ərzaq məhsuluna tətbiq olunan tədbirin SPS və ya TBT tədbiri olmasını müəyyən etmək üçün, ilk növbədə iki cəhəti nəzərdən keçirmək lazımdır. İlk olaraq tədbirin məqsədinə baxmaq zəruridir. Məqsəd insan, bitki və heyvanların sağlamlığı və həyatını qorumaq olduğu halda, ikinci cəhətə nəzər salmaq gərəkdir. Bu da ki, insan, bitki və heyvanların sağlamlığının hansı təhlükə və risklərdən qorunması məsələsidir. Əgər bu aşağıda sadalanan təhlükələrdən biridirsə deməli nəzərdə tutulmuş tədbir SPS tədbiridir.

- insan sağlamlığı: qida qəbulundan, heyvan xəstəlikləri və ya zərərli orqanizmlərdən yaranan təhlükə;
- heyvan sağlamlığı: qida qəbulu və ya heyvan xəstəliklərindən yaranan təhlükə (zərərli orqanizmlər daxil olmaqla bütün məzmunlu və mənbələr)
- bitki sağlamlığı: zərərli orqanizmlərdən yaranan təhlükə (xəstəliklər daxil olmaqla bütün mənbələr)
- ətraf mühitə zərər: zərərli orqanizmlərin ölkəyə gətirilməsi, baş verməsi və ya yayılmasından yaranan təhlükə.

SPS tədbirlərinə TBT tədbirlərindən fərqli şəkildə yanaşılır. SPS tədbirləri hər zaman elmi cəhətdən əsaslandırılmış olmalıdır. Yəni müəyyən SPS tədbirinin tətbiqinin insan, heyvan və bitki həyat və sağlamlığının mühafizəsi üçün zəruri olmasına dair kifayət qədər elmi sübut olmalıdır. TBT sazişində isə göstərilir ki, hər hansı riski qiymətləndirərkən mövcud elmi məlumat nəzərə alınmalı olan müvafiq meyarlardan biridir. Texniki tədbirlər müxtəlif növ məqsədlər daşıya bilər. Məsələn, bəzi texniki reqlamentlər təhlükəszilik və sağlamlığın qorunması, bəziləri məhsulların minimum keyfiyyətliliyini təmin etmək, bəziləri isə istehlakçıların aldadılmasının qarşısının alınması məqsədi daşıya bilər.

Bundan əlavə, TBT Sazişinə əsasən texniki reqlamentdəki tələblər ÜTT-nin ən əlverişli ölkə prinsipi əsasda tətbiq edilməlidir. SPS tələblərindən heyvan və bitki mənşəli xəstəliklərin ölkəyə daxil olmasının qarşısının alınmasına yönəldilmiş tələblər isə bu cəhətdən daha sərbəstdirlər. Yəni əgər hər hansı bir ölkədə və ya bölgədə müəyyən heyvan və bitki xəstəlikləri mövcuddursa və ya yayılmışdırsa həmin bölgələrdən müvafiq olaraq bitki və heyvanların və ya məhsullarının idxalı məhdudlaşdırıla və ya qadağan edilə bilər.

TBT və SPS tələbləri arasında digər bir əsaslı fərq müvafiq sahədə beynəlxalq standartlardan kənara çıxmanın hansı şərtlər daxilində icazə verilməsidir. TBT Sazişi beynəlxalq standartlardan kənara çıxmanın hansı hallarda labüdlüyünü qeyd edir. Sazişə əsasən beynəlxalq standartın mövcud olduğu təqdirdə beynəlxalq standart o zaman milli standartın hazırlanmasında əsas kimi qəbul edilməyə bilər ki, TBT Sazişinin qanuni məqsədlərinə nail olmaq üçün, məsələn, iqlim və coğrafi faktorlar, texnoloji problemlər baxımından qeyri-effektiv hesab edilsin. SPS Sazişinə əsasən isə elmi əsasın olduğu və ya riskin qiymətləndirilməsi

əsasında ölkə üçün daha yüksək SPS mühafizəsinin uyğun olduğunun müəyyən edildiyi təqdirdə ölkə beynəlxalq standartlartdan daha yüksək SPS tələbləri müəyyən edə bilər.
Digər bir fərq SPS Sazişinin təcili hallarda (xəstəliklərin yayılma riski olduğu hallarda) hətta kifayət qədər elmi əsas olmadığı təqdirdə belə üzv ölkələrə müvəqqəti əsasda önləmə tədbirləri tətbiq etməyə icazə verməsidir. TBT sazişinin isə belə bir müddəası mövcud deyil.

Bütün bu fərqlər göstərir ki, ÜTT Üzv ölkələrində və ÜTT-yə üzvlük prosesində olan ölkələrdə müvafiq qanunvericilik hazırlanarkən bu məqamlar nəzərə alınmalı, SPS və TBT tədbirlərinə fərqli yanaşılmalıdır. TBT Sazişi ilə tənzimlənən texniki reqlamentlər yeyinti məhsullarına dair SPS tədbirlərini əks etdirə və bununla əlaqəli olaraq həmin texniki reqlament əsasında yeyinti məhsulu məcburi uyğunluq sertifikatlaşdırılmasından keçirilə bilməz. Yeyinti məhsullarına dair SPS tədbirləri qida təhlükəsizliyi sahəsində digər normativ hüquqi aktlarda öz əksini tapır və uyğun olaraq yeyinti məhsulları baytarlıq, fitosanitar və gigiyenik sertifikatlaşdırmadan keçirilir. Yeyinti məhsullarının bəzi aspektləri TBT tədbirləri hesab olunur ki, onlar irəlidə izah olunacaq və həmin tələblərin yerinə yetirilməsi üçün sertifikatlaşdırma yox, bazara nəzarət tədbirləri həyata keçirilir.

Yeyinti məhsullarının insan və heyvanların həyat və sağlamlığına təhlükə törədə biləcək əksər aspektləri SPS, digər aspektləri isə TBT sazişi ilə tənzimlənir. Bunu daha aydın görmək üçün bəzi misallar gətirək:

Yeyinti məhsullarında mövcud əlavəedicilər; zəhərli maddələr; baytarlıq dərmanların va ya pestisidlərin qalıqları; yeyinti məhsulunun təhlükəsizliyi ilə birbaşa əlaqəli olan nişanlama; yeyinti məhsullarının təhlükəsizliyi, heyvan və bitki sağlamlığı ilə əlaqədar sertifikatlaşdırma; bitki/heyvan karantini, hər hansı bir ərazinin zərərvericilərdən və xəstəliklərdən azad olmasını bəyan etmək; ölkəyə zərərverici və xəstəliklərin daxil olması və yayılmasının qarşısının alınması SPS tədbriləri hesab olunur. Yeyinti məhsullarına dair minimum keyfiyyət tələbləri, yeyinti məhsullarının və dərmanların tərkibi və ya keyfiyyəti barədə nişanlama, qablaşdırmanın həcmi, forması və görünüşü TBT tədbirləri hesab olunur.
Müvafiq olaraq, SPS tədbirləri sanitariya və fitosanitariya norma və qaydaları ilə, TBT tədbirləri isə texniki reqlamentlərlə tənzimlənməlidir. Uyğun olaraq yeyinti məhsulları baytarlıq, gigiyenik və fitosanitar sertifikatlaşmadan, digər məhsullar isə uyğunluq sertifikatlaşmasından keçməlidir.

Beləlik yuxarıda izah edilənlərdən aydın olur ki, beynəlxalq təcrübəyə əsasən ərzaq məhsullarının təhlükəsizliyinə digər məhsullardan fərqli yanaşılır və buna görə qida təhlükəsizliyində milli standartlaşdırma sisteminin elə bir rolu olmur. Milli standartlaşdırma sistemi isə daha çox qeyri-ərzaq mallarının təhlükəsizliyin təmin edir. Buna uyğun olaraq yeyinti məhsullar üçün normativ sənədlərin hazırlanması milli standartlaşdırma sisteminin tərkibə daxil deyil. Bu sənədlər səhiyyə və kənd təsərrüfatı nazirlikləri tərəfindən hazırlanır və təsdiq edilir. Yeyinti məhsullarının sertifikatlaşması isə yenə də həmin nazirliklər tərəfindən gigiyenik, baytarlıq və fiotsanitariya göstəriciləri üzrə həyata keçirilir və heç bir Avropa ölkəsində milli standartlaşdırma sistemi vasitəsilə yeyinti məhsullarına uyğunluq sertifikatı

verilmir. Yeyinti məhsullarına istehsalatda və bazarda nəzarətə gəldikdə isə yenə də bu nəzarət qida təhlükəsizliyi üzrə vahid orqan tərəfindən və ya səhiyyə və kənd təsərrüfatı nazirlikləri tərəfindən həyata keçirilir. Milil standartlaşdırma sistemi tərəfindən yalnız yeyinti məhsulların qablaşdırılması, markalanması, daşınması və saxlanmasına nəzarət edilir, ancaq sertifikatlaşdırma aparmadan. Göründüyü kimi ölkəmizdə hər üç mərhələ üzrə (yeyinti məhsullarına normativ sənədlərin hazırlanması, sertifikatlaşdırılması və uyğunluğuna nəzarət) milli standartlaşdırma sistemi qida təhlükəsizliyində rola malikdir ki, beynəlxaq təcrübədə bunların heç biri mövcud deyil. Beynəlxalq təcrübənin daha aydın olması üçün Avropa Birliyinin və ayrı-ayrı ölkələrin təcrübələrinə nəzər salaq.

Avropa Birliyində yeyinti məhsullarına bazarda nəzarət ayrıca aparılır və bunun üçün aidiyyəti qurumlar mövcuddur. Avropa Birliyində qida təhlükəsizliyi üzrə ümumi bir qurum mövcuddur ki, həmin qurum bütün Birlik üzrə qida təhlükəsizliyinin təmin edilməsinə nəzarət və milli orqanların fəaliyyətin koordinasiya edir. O cümlədən üzv ölkələrin əksəriyyətində də qida təhlükəsizliyi sahəsində vahid orqan yaradılıb. Məsələn, Litvada bir neçə qurum (Dövlət Gigiyenik İnpektoluğu, Dövlət Keyfiyyət İnspektorluğu və Dövlət Baytarlıq Xidməti) ləğv edilərək birbaşa Nazirlər Kabineti yanında vahid Dövlət Qida və Baytarlıq xidməti yaradıldı ki, həmin Xidmət qida məhsullarının təhlükəsizliyinə nəzarət və heyvanlara baytarlıq yoxlamaların həyata keçirir. Avropa Birliyinin 7 ölkəsində baytarlıq və fitosanitar nəzarət funskiyaları da daixl olmaqla qida təhlükəsizliyi üzrə vahid orqan mövcuddur. 22 ölkəsində isə qida təhlükəsizliyi nazirliklər yanında (əsasən Kənd Təsərrüfatı və Səhiyyə Nazirlikləri) yaradılmış orqanlar tərəfindən təmin edilir. Birliyə üzv 6 ölkədə isə qida təhlükəsizliyi funksiyaları Səhiyyə və Kənd Təsərrüfatı Nazirlikləri arasında bölüşdürülüb. Onu da qeyd edək ki, Avropa Birliyində heç bir ölkəsində milli standartlaşdırma orqanı qida təhlküəsizliyinin tənzimlənməsində hər hansı bir rola malik deyil [8].

ÜTT-nin üzvü olan və Avropa Birlyinə inteqrasiya edən MDB dövlətlərində də oxşar islahatlar həyata keçirilir. Belə ki, Ukraynada bazara nəzarəti həyata keçirən əsas orqan yeni yaradılmış İstehlakçıların Müdafiəsi üzrə Dövlət İnspektorluğudur. Konkret məhsullara nəzarəti isə aidiyyəti sahə nazirlikləri və dövlət orqanları həyata keçirir.

Ukraynada yeyinti məhsullarının təhlükəsizliyi sahəsində tənzimləyici funksiyaların Kənd Təsərrüfatı Nazirliyi və nəzarət funksiyalarının yeni yaradılmış Dövlət Baytarlıq və Fitosanitar Xidməti həyata keçirir. Səhiyyə Nazirliyinin tabeliyində olan Dövlət Sanitariya və Epidemioloji Xidmətinin yeyinti məhsullarının təhlükəsizliyinə nəzarət funksiyalarının böyük bir hissəsi 2013-cü ilin əvvələrindən Dövlət Baytarlıq və Fitosanitar Xidmətinə ötürülüb [3, s. 11].

Moldovada bazara nəzarət funksiyalarını yerinə yetirən müxtəlif qurumlar mövcuddur. Hər bir bazara nəzarət qurumunun nəzarət etdiyi məhsullar siyahısı vardır. Məsələn, Texniki Nəzarət və Riskli Sənaye Məhsulları üzrə Baş İnspektorluq mülki istifadə üçün partlayıcılara, Bazara Nəzarət, Metrologiya və İstehlakçıların Qorunması üzrə Baş İnspektorluq aşağı voltajlı cihazlara, isti su qaynadıcılarına, liftlərə, sənaye avadanlıqlarına, oyuncaqlara, elektromaqnit uyğunluğuna, tibbi avadanlıqlara, Sanitar-Epidemioloji Dövlət Xidməti qablaşdırma və

qablaşdırma tullantıları, oyuncaqlar, şəxsi mühafizə avadanlıqları və s. məhsulların uyğunluğuna nəzarət edir. Bazara ümumi nəzarət üzrə əsas səlahiyyətli orqan İqtisadiyyat Nazirliyinin İstehlakçıların Mühafizəsi Departamentidir [4, s. 96].

Göründüyü kimi, ÜTT-nin üzvü olan MDB dövlətlərində də artıq bu cür dəyişikliklər edilərək yeyinti məhsullarına dair tələblər və onların tətbiqi standartlaşdırma sistemindən ayrılmışdır. Ölkəmizdə bəzi ÜTT üzvü olan MDB dövlətləri nümunə gətirilərək texniki reqlamentlərin hələ də yeyinti məhsullarına şamil edilə bilməsi əsas gətirilir. Bu məsələyə də aydınlıq gətirək. Yeyinti məhsullarının qeyd etdiyimiz kimi qablaşdırılması, saxlanması, markalanması və bu kimi məsələlərə dair texniki reqlament tələb müəyyənləşdirə bilər. Ukraynanın Texniki tənzimləmə, standartlar və uyğunluğun qiymətləndirilməsi prosedurаları haqqında qanununda qeyd olunur ki, bu qanun sanitar tədbirlərdə müəyyən olunmuş yeyinti məhsullarının təhlükəsizliyinə dair tələbləri əks etdirə bilməz, lakin qismən və ya bütövlükdə terminologiya, qablaşdırma, nişanlama, istehsal prosesi və ya metoduna aid ola bilər. Ukrayna Avropa Birliyinin Yeni Yanaşma Direktivləri əsasında 40-dan çox texniki reqlament qəbul etmişdir. Bu texniki reqlamentlər sırasında yalnız biri yeyinti məhsullarına aiddir ki, o da yeyinti məhsullarının nişanlanması haqqındadır [5, s. 42].

Ukraynanın ÜTT-yə üzv olması üzrə İşçi Qrupunun hesabatında bildirilir ki, Ukrayna məcburi sertifikatlaşdırmanın tətbiq olunduğu məhsul kateqoriyalarının daha da azaldılması və məhdudlaşdırılması üzrə ÜTT qarşısında öhdəlik götürmüşdür [3, s. 5].

Bu sahədə Rusiya təcrübəsinə nəzər yetirək. Hazırda Rusiyada 24 texniki reqlament qəbul olunmuşdur. Texniki reqlamentlərdə həmçinin məhsulun hansı yolla uyğunluğunun qiymətləndirilməsi tələbi göstərildiyi üçün, müvafiq texniki reqlamentlərin hələ qəbul olunmadığı məhsullar üçün məcburi sertifikatlaşdırmanın və ya uyğunluq bəyannaməsinin tətbiq olunduğu məhsulların siyahısı qüvvədədir. Müvafiq texniki reqlamentlər qəbul olunana qədər, məhsula dair məcburi tələbləri ehtiva edən milli standartlar, sanitar norma və qaydaları, tikinti norma və qaydaları və digər müvafiq normativ aktlar əsas götürülür. Rusiya Federasiyasının təcrübəsinə nəzər salsaq görərik ki, qida ilə əlaqədar hazırkı texniki reqlamentlər texniki tələblərlə yanaşı sanitar və fitosanitar tələbləri də ehtiva edir. Lakin eyni zamanda, məsələn süd və süd məhsulları üzrə texniki reqlamentin uyğunluğun qiymətləndirilməsi ilə bağlı maddəsində qeyd olunur ki, sözügedən məhsulların texniki reqlamentdəki məcburi tələblərə uyğunluğunun qiymətləndirilməsi əhalinin sanitar və epidemioloji firəvanlığının təmin olunması üzrə, istehlakçıların hüquqlarının müdafiəsi və baytarlıq sahəsində nəzarəti həyata keçirən federal icra hakimiyyəti orqanları və sadalanan dövlət nəzarətlərini həyata keçirmək üçün səlahiyyətləndirilmiş icra hakimiyyəti orqanları tərəfindən dövlət nəzarəti formasında aparılır [3, s.6].

Rusiya ÜTT qarşısında texniki reqlamentlərində təkrarlanan sertifikatlaşdırma tələblərinin aradan qaldırılması ilə bağlı öhdəlik götürmüşdür. Həmçinin, 1 iyul 2010-cu il tarixindən Rusiya sənaye məhsulları üçün təkrarlanan sertifikatlaşdırma tələbini aradan qaldırmışdır. Eyniylə, Rusiyanın üzvü olduğu Avrasiya Gömrük İttifaqının (Rusiya, Belarus,

Qazaxstan) bəzi məhsullar üçün həm baytarlıq sertifikatı, həm də uyğunluq bəyannaməsinin mövcud tələbi ilə bağlı qeyd olunur ki, Gömrük İttifaqının hazırda tərtib etdiyi texniki reqlamentlərdə uyğunluğun təsdiqi üçün sadəcə bir sənəd tələb olunacaqdır [3, s. 7].

***Azərbaycanda qida təhlükəsizliyinin mövcud vəziyyəti və problemlər***

Beynəlxalq təcrübəyə əsasən yeyinti məhsullarına dair normativ sənədlərin işlənməsi, tətbiqi və tələblərinə uyğunluğa nəzarət milli standartlaşdırma sisteminin tərkibinə aid olmasa da ölkəmizdə bunun məhz milli standartlaşdırma sisteminin tərkibində olması təklif edilən islahatlar içərisində beynəlxalq sistemə əsasən yeyinti məhsullarının necə tənzimlənməli olduğun və hansı islahatların aparılmalı olduğunu təsvir etməyi zəruri edir. Belə ki, irəlidə qeyd ediləcək institutsional islahatlardan əlavə yeyinti məhsullarının tənzimlənməsi sahəsində bir çox islahatlar aparılmalıdır. ÜTT-nin Sanitariya və Fitosanitariya Sazişinə əsasən üzv ölkələr qida təhlükəsizliyinə dair Kodeks Alimentarius, bitki məhsulları üzrə Beynəlxalq Bitki Mühafizəsi Konvesiyası, heyvan mənşəli məhsullar üzrə Beynəlxalq Epizotik Təşkilatının üzvü olmalı və yeyinti məhsullarına dair norma və qaydalar həmin təşkilatların tələblərinə uyğunlaşdırmalıdır. Hazırda Azərbaycan həmin təşkilatların və Konvensiyaların üzvü olsa da, onların standartları ölkədə çox az tətbiq edilir.

Ümumiyyətlə qida təhlükəsizliyi üzrə mövcud sistemdə beynəlxalq tələblərlə müqayisədə aşağıdakı çatışmazlıqlar mövcuddur:

- qida təhülkəsizliyinə dair standartlar, sanitar və fitosanitar norma və qaydaların əksəriyyəti Sovet dövründə hazırlanmış və bu günün tələblərinə cavab vermir;
- yeyinti məhsullarının təhülkəsizliyinə dair görülən tədbirlər onların daşıdığı riskə görə deyil, sadəcə standartların tələblərinə uyğunluğa görə sertifikatların mövcudluğu əsasında aparılır. Bu isə məhsulların təhlükəsizliyindən çox, sertifikatların mövcudluğuna nəzarəti təmin edir;
- bütün qanunlar qida məhsullarının məcburi sertifikatlaşdırılmasına əsaslanan nəzarət modelini tətbiq edir, bu isə risk əsaslı olmadığından, ÜTT –nin SPS Sazişinə uyğun deyil. Xərclər müəssisələr tərəfindən çəkilməklə yanaşı, demək olar ki, bütün sertifikatlaşdırma işləri laboratoriya sınağının nəticələrinə əsaslandığından, bu, sahibkarlıq fəaliyyətinə həddən artıq yük qoyur. Bundan başqa, bəzi qurumlarda nəzarət və sınaq funksiyaları ayrıca funksiya hesab olunmur ki, bu da maraqların toqquşmasına səbəb olur. Çünki laboratoriyalar çox böyük kapitala malik avadanlıqların saxlanması üçün gəlir əldə etməyə çalışır;
- qida təhlükəsizliyinə nəzarət sistemində bir çox dövlət orqanları təkrar yoxalamalar aparır və bir- birinin fəaliyyətlərin təkrarlayır. Bu isə sahibkarlar üçün əhəmiyyətli dərəcədə əlavə xərc və vaxt itkisi yaradır;
- Dövlət Gömrük Komitəsi tərəfindən sərhəddə aparılan məhsulların təftişi, əsasən, yükün mənşəyi ilə əlaqəli risklərə istinad etmədən aparılır. İxrac nəzarət sistemləri də zəif olaraq qalır. Rusiya bazarı tərəfindən qida təhlükəsizliyinə dair daha ciddi idxal nəzarəti

ehtimalı ilə bağlı narahatçılıq vardır. Çünki Rusiya 2012 – ci ildə ÜTT - ə üzv olduqdan sonra beynəlxalq standartları geniş şəkildə tətbiq edir .

- ümumiyyətlə, qida təhlükəsizliyinə nəzarət sisteminin elm əsaslı idarəedilməsinin aydın mexanizmi yoxdur. Baxmayaraq ki, yeni qanunvericilik riskin nəzərə alınmasını tələb edir, heç bir mexanizm müəyyən olunmamışdır. Maraqlı tərəflərlə məsləhətləşmə, şəffaflıq və izləmə imkanı prinsipləri ifadə olunmamışdır.
- bir sıra əhəmiyyətli funksiyalar nə cari sistemdə, nə də islahat təkliflərində əhatə olunmur. Qeyd olunduğu kimi, elmi risk qiymətləndirməsi üçün mexanizmlər yoxdur, sınaq laboratoriyalarının vahid təyinatı yoxdur, istinad laboratoriyası funksiyaları yoxdur və qida təhlükəsizliyi vəziyyətinin (pestisidlər, baytarlıq preparatları və ətraf mühit çikləndiriciləri) monitorinqi aparılmır. Ən böyük boşluq ondan ibarətdir ki, ümumiyyətlə, qida təhlükəsizliyi sistemi koordinasiya və strateji planlaşdırma olmadan inkişaf etdirilir.
- qida təhlükəsizliyinin tənzimləməsi sahəsində çalışan müxtəlif nəzarət orqanlarının sayının rasionallaşdırılması və orta müddətə işlək institusional çərçivə təmin etmək üçün mühüm qərarların, vahid orqan yanaşması ilə bağlı uzun müddət verilməmiş strategiya qərarlarının verilməsinə ehtiyac vardır. Eyni zamanda, laboratoriya sınaqlarının nəzarət orqanlarından funksional və maliyyə cəhətdən ayrılması həyata keçirilməlidir və onlar nəzarət orqanlarının deyil, hökumətdə digər bir qurumun mülkiyyətində olmamalıdır. Nəzarət orqanları rəsmi nəzarət üzrə qida təhlükəsizliyi sınaqlarına aid büdcəni tərtib etməlidirlər.

## Nəticə və təkliflər

Göründüyü kimi Azərbaycanın mövcud milli standartlaşdırma sistemi və onun qida təhlükəsizliyində rolu beynəlxalq tələblərlə və təcrübə ilə uyğun deyil və bu istiqamətdə bir çox islahatla aparılmalıdır. Qeyd etdik ki, ÜTT çərçivəsində yeyinti məhsullarının istehlakı zamanı onların insan orqanizminə təsiri baxımından təhlükəsizliyi digər bir Sazişlə tənzimləndiyindən onların texniki reqlamentlər və standartlarla tənzimlənməsinə yol verilmir. Texniki reqlamentlərlə yalnız yeyinti məhsullarının qablaşdırılması, saxlanması, daşınması və markalanması məsələləri əhatə edir ki, onların da tətbiqi üçün hər hansı sertifikatlaşdırmanın aparılması nəzərdə tutulmur. Ancaq hazırkı şəraitdə yeyinti məhsullarına dair standartlar mövcuddur və əksər yeyinti məhsullarının həmin standartlara uyğunluq sertifikatlaşması tələb olunur. Digər tərəfdən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tərkibində yeyinti məhsullarına dair labaratoriyalar mövcuddur və Komitənin tərkibində olan bir çox struktur bölmələri, o cümlədən Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Xidməti əsasən yeyinti məhsullarının istehsalına nəzarəti həyata keçirir. ÜTT tələbləri ilə uyğunsuzluq təşkil edən məqamlardan biri də Nazirlər Kabinetinin qərarı əsasında yeyinti məhsullarına dair Kodeks Alimentarius Komissiyasının təsis edilməsi və aparıcı orqan kimi məhz Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təyin edilməsidir. Mövcud şəraitdə bu məqsədəuyğun olsa da, ÜTT tələblərinə uyğun deyil. Belə ki, Kodeks

standartları milli standart kimi deyil, sanitariya norma və qaydaları kimi qəbul edilməlidir və bu işə əsas cavabdehliyi Səhiyyə və Kənd Təsərrüfatı Nazirlikləri daşımalıdır. Bu eyni zamanda artıq milli standart kimi qəbul edilmiş Kodeks standartlarının da yenidən sanitariya norma və qaydaları kimi qəbul edilməsi deməkdir.

Odur ki, yuxarıda sadalanan problemlərin həll edilməsi üçün bir çox islahatlar aparılmalıdır. İlk növbədə ÜTT-nin tələblərin yerinə yetirilməsi üçün standartların tərkibindən yeyinti məhsullarının tərkibinə dair sanitariya və fitosanitariya tələbləri çıxarılmalı və onlar ÜTT-nin Sanitariya və Fitosanitariya Sazişinin tələblərinə əsasən hazırlanmış sanitariya və fitosanitariya norma və qaydalarına daxil edilməlidir. Və sanitariya normalar Səhiyyə Nazirliyi, baytarlıq və fitosanitar normalar isə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən qəbul və tətbiq edilməlidir. Digər tərəfdən yeyinti məhsullarına dair uyğunluq sertifikatı ləğv edilməli, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tərkibindən yeyinti məhsullarının istehsalına nəzarət çıxarılmalıdır. Yeyinti məhsullarının təhlükəsizliyinə təminatına dair dövlət orqanlarının səlahiyyətlərinə yenidən baxılmalı, təkrarlanmalar aradan qaldırılmalı və irəlidə qeyd edilən qaydada institutsional islahatlar aparılmalıdır. Ümumilikdə isə Qida Təhlükəsizliyinə dair hazırlanmış və hazırda Nazirlər Kabinetində olan Dövlət Proqramı qəbul edilməli və həmin proqram əsasında hər tərəfli islahatlar aparılmalıdır.

Avropa Birliyinin və bəzi MDB dövlətlərinin bazara nəzarət təcrübəsindən qaynaqlanaraq Azərbaycanda qida təhlükəsizliyi sistemində aşağıdakı islahatların aparılması təklif edilir.

1. Yeyinti məhsullarının bazarda nəzarəti sahəsində təkrarlanmaların aradan qaldırılması və vahid nəzarət orqanın yaradılması. Belə ki, bu sahədə iki model mümkündür. Birincisi, Dövlət Baytarlıq Xidmətinin nəzarət səlahiyyətlərinin heyvanlar və onların ətlərinə nəzarətlə, Dövlət Fitosanitar Nəzarəti Xidmətinin səlahiyyətlərinin bitkilər və tərəvəzlərə nəzarətlə məhdudlaşdırılması və onların bitki və heyvan mənşəli məhsullara nəzarət funksiyaları ləğv edilməklə bütün yeyinti məhsulların təhlükəsizliyinə nəzarəti Səhiyyə Nazirliyi yanında Qida Təhlükəsizliyinə Nəzarət üzrə Dövlət Xidməti yaratmaqla vahid bir orqana verilməsidir. Yeyinti məhsullarına dair norma və qaydaların işlənməsi funksiyasının isə ya Kənd Təsərrüfatı Nazirliyinə, ya da Səhiyyə Nazirliyinə verilməsi məqsədəuyğun olardı. Eyni zamanda digər dövlət orqanlarının yeyinti məhsullarının təhlükəsizliyinə nəzarət funksiyaları ləğv edilməlidir. İkinci model isə Nazirlər Kabineti yanında Qida Təhlükəsziliyinə Nəzarət üzrə Agentlik yaraıla bilər ki, həmin Agentlik qida məhsullarının təhlükəsizliyinə bütün nəzarət funksiyaların, eləcədə Kənd Təsərrüfatı yanında yaradılan Dövlət Baytarlıq Xidməti və Fitosanitariya Nəzarəti üzrə Dövlət Xidmətinin uyğun olaraq heyvanlara və bitkilərin sağlamlığına nəzarət funksiyalarını da həyata keçirə bilər. Bu isə həmin qurumların ləğv edilməsi də deməkdir. Belə bir model Avropa Birliyinin 7 ölkəsində və Kanadada mövcuddur.
2. Təklif olunan Orqanın yaradılması çətin və ya ümkün olmadıqda Səhiyyə və Kənd təsərrüfatı nazirlikləri arasında səlahiyyətlərin bölüşdürülməsi ilə qismən islahatların keçirilməsi.

3. Bu halda Nazirlər Kabineti yanında Qida Təhlükəsizliyi Şurası yaradılmalıdır. Şura koordinasiya işləri üçün cavabdeh olmalıdır.
4. İqtisadiyyat və Sənaye Nazirliyi yanında İstehlakçıların hüquqlarının müdafiəsi və Anti-İnhisar siyasəti üzrə Dövlət Xidmətinin keyfiyyət sertifikatı verilməsi səlahiyyətinin ləğv edilməsi. Beynəlxalq tələblərə əsasən, bazara nəzarət orqanı uyğunluğun qiymətləndirilməsi fəaliyyəti ilə məşğul olmamalıdır. Digər tərəfdən, beynəlxalq təcrübəyə uyğunlaşma qida məhsullarına verilən digər sertifikatlar (baytarlıq, gigiyenik, fitosanitar) əsasında məhsulların Avropa Birliyinin tələblərinə uyğunlaşdırılmasın təmin etmiş olacaq və bunun üçün əlavə olaraq keyfiyyət sertifikatının verilməsinə ehtiyac qalmayacaq.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. ISO/IEC Guide 2-2004: Standardization and related activities — General vocabulary. Geneva: ISO Publishing house, 2004, 76 p.
2. Avropa Birliyinin Azərbaycanda Qida Təhlükəsizliyi sahəsində islahatlara dair Hesabat və Tövsiyyələr
3. Xəlilova N., Mikayılov E. ÜTT-nin TBT və SPS Sazişlərinin fərqli xüsusiyyətləri. Bakı, 15 s.
4. Richard Wheatley. Technical regulations & quality Infrastructure law and policy: Law approximation to EU standards in the Republic of Moldova, Chisinau, 2010, 187 p.
5. International Centre for Policy Studies. Market surveillance in Ukraine: Reforms on the way to the European Market. Kyiv, 2011, 93 p.
6. www.azstat.gov.az
7. www.consumer.gov.az
8. www.ec.europa.eu
9. www.azstand.gov.az

**The role of national standardization system in ensuring food safety: current status and international experience**

***Elkhan Mikayilov***

*Summary*

Currently our country's national standardization system has an active role in ensuring food safety. But, there is a different approach to the role of national standardization system in food safety in international experience. Thus, in this article the role of national standardization system in food safety and international experience in this regard has been analyzed and recommendations are given for improvements.

***Keywords**: national standardization system, food safety, international experience*

**Роль национальной системы стандартизации в обеспечении безопасности пищевых продуктов: современное состояние и международный опыт**

*Е. А. Микаилов,*

*Аннотация*

В настоящее время национальная система стандартизации в нашей стране играет активную роль в обеспечении безопасности пищевых продуктов. Но есть другой подход к роли национальной системы стандартизации в области безопасности пищевых продуктов в международном опыте. Таким образом, в этой статье роль национальной системы стандартизации в области безопасности пищевых продуктов и международного опыта в этой области был проанализирован и даны рекомендации по улучшению.

*Ключевые слова: национальная система стандартизации, безопасности пищевых продуктов, международных опыте использования*